# Şəhidin 50 illik yubileyi qeyd olunub




**"Nizami" Kino Mərkəzində şəhid İlqar Verdiyevin 50 illik yubileyinə həsr olunan tədbir keçirilib.**

AZƏRTAC xəbər verir ki, ölkəmizin ərazi bütövlüyünün bərpası zamanı şəhid olan soydaşlarımızın əziz xatirəsi birdəqiqəlik sükutla yad edilib. "Andına sadiq oğul" sənədli filmi nümayiş etdirilib. Film "Xocalı Soyqırımını Tanıtma" İctimai Birliyinin qurucusu, jurnalist Şamil Sabiroğlunun layihəsi və Müdafiə Nazirliyinin dəstəyi ilə çəkilib.

Tədbirdə polkovniklər Rəhman Əsgərov və İlqar Nəciyev, polkovnik-leytenant Üzeyir Cəfərov, mayor Elşən Əliyev və Muxtar Həşimov, Vətən Müharibəsi Qəhrəmanı, şəhid kapitan Ceyhun Həsənovun atası Aydın Həsənov, Rusiyanın Rostov vilayətində yaşayan sahibkar Leyla Əhmədova, şəhid mayorun ömür yolundan bəhs edən kitabın müəllifi Nəcibə İlkin, şairə Lətifə Rəşid çıxış edərək İlqar Verdiyevin keçdiyi şərəfli döyüş yolu barədə danışıblar.

İlqar Verdiyevin qardaşı qızı, məktəbli Rəna Verdiyeva əmisinə həsr edilən şeiri səsləndirib, şəhidin anası, qardaşları Azər və Samir Verdiyevlər tədbirin keçirilməsinə dəstək göstərənlərə ailə üzvləri adından təşəkkür ediblər.

Şəhidin həyat yoldaşı Dilarə xanım, övladları Kamran, Orxan və Əminə çıxış edərək İlqar Verdiyevə göstərilən hörmət və ehtiram üçün minnətdarlıqlarını bildiriblər.

Qeyd edək ki, İlqar Verdiyev 1975-ci il oktyabrın 31-də Bakı şəhərində doğulub. Bakının Nizami rayonundakı 129 nömrəli tam orta ümumtəhsil məktəbində oxuyub. General C.Naxçıvanski adına İbtidai Hərbi Liseyi və Ankara Hərbi Məktəbini bitirib. Təyinatla Bakıdakı hərbi hissələrdən birinə göndərilib. 2008-ci ildən xidmətini cəbhə bölgəsində davam etdirib. 2012-ci il iyunun 14-də xidməti vəzifəsini yerinə yetirərkən şəhid olub. Bakının Xəzər rayonunun Şüvəlan qəsəbəsində dəfn edilib. Üç övladı yadigar qalıb.

Azərbaycan. - 2025.- 13 noyabr (№241).- S.13.